# TİBBİ MÜAYİNƏ KARTI sisteminin tətbiqinə başlanıb

Ü.FAZİLQIZI

**Artıq neçə müddətdir ki, «Tibb qəzeti»nin oxucularına səhiyyə sahəsində qəbul edilən və tətbiq olunan Dövlət Proqramları haqqında məlumat verir, Səhiyyə Nazirliyinin mütəxəssisləri ilə həmin proqramların mahiyyəti və bu sahədə görülən işlərlə bağlı söhbət edirik. Bu dəfə də həmsöhbətimiz Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzinin (İSİM) direktor müavini Cəbrayıl Əsədzadədir Onunla bugünkü söhbətimiz Tibbi müayinə kartlarının tətbiqi haqqındadır.**

«Əhalinin sağlamlığının təmin olunması, infeksion və parazitar xəstəliklərin yayılmasına yol verilməməsi üçün obliqat qruplara aid edilən şəxslər mütləq həm işə daxil olanda, həm də sonralar dövri olaraq tibbi müayinələrdən keçməlidirlər. Bu işlərin, tibbi müayinələrdə iştirak edən ixtisaslı həkimlərin, işin növünə görə lazımi laborator və funksional-diaqnostik müayinələrin, həmin işə qəbul edilmək üçün tibbi əks-göstərişlərin siyahısı Səhiyyə Nazirliyinin 23 yanvar 1998-ci il tarixli 13 saylı əmri ilə təsdiq edilib.

Obliqat qrupların vaxtlı-vaxtında müayinədən keçmələrinə nəzarətin təkmilləşdirilməsi məqsədi ilə Səhiyyə Nazirliyinin Rabitə və İnformasiya Texnologiyaları, Maliyyə və Ədliyyə Nazirlikləri ilə razılaşdırılmış təklifinə əsasən, Nazirlər Kabinetinin 12 iyun 2006-cı il tarixli 142 saylı qərarı ilə «Tibbi müayinə kartı» sisteminin tətbiqi Qaydaları» təsdiq edilib. Bununla əlaqədar Səhiyyə Nazirliyi tərəfindən Tibbi müayinə kartı sisteminin tətbiqinə başlanıb. Həyata keçirilməsi nəzərdə tutulan sistemin məqsədi müayinə prosesinin nəticələri üzrə vahid mərkəzləşdirilmiş və lokal məlumat bazalarının yaradılması və bununla da prosesdə iştirak edən qurumlar arasında məlumat mübadiləsinin səmərəliliyinin artırılması, Gigiyena-Epidemiologiya Mərkəzləri (GEM) və poliklinikalar tərəfindən prosesə nəzarətin gücləndirilməsidir. Obliqat qrupların müayinəsi prosesinin əsas iştirakçıları obliqat qrupa daxil olan şəxs, həmin şəxsin işlədiyi müəssisə, müəssisənin fəaliyyət rayonu üzrə müvafiq poliklinika və GEM-dir. Göstərilən tərəflərin hər birinin obliqat qrupların müayinəsi üzrə müəyyən funksiyaları və öhdəlikləri vardır».

C.Əsədzadə qeyd etdi ki, hal-hazırda müxtəlif sahələrdə çalışan, işə daxil olarkən və ya sonradan dövri tibbi müayinədən keçməsi tələb olunan vətəndaşların (obliqat qrupların) müayinədən keçmələri barədə məlumatlar Səhiyyə Nazirliyi tərəfindən tətbiq edilən, adi kitabça şəkilli tibbi müayinə kartlarında cəmləşdirilir. Onun sözlərinə görə, tətbiq edilən həmin kartlar artıq mikroprosessorlu çip ilə təchiz olunmuş kartlarla əvəz ediləcək. Yeni kartların üzərində və çiplərində vətəndaşa aid inzibati məlumatlarla yanaşı, onun ilkin və dövri tibbi müayinədən keçməsi barədə məlumatlar yerləşdiriləcək.

Müayinə kartı sisteminə daxil edilən informasiyaların həm də Səhiyyə Nazirliyinin İnformasiya Mərkəzində cəmləşdiriləcəyini deyən direktor müavini bildirdi ki, bu, Nazirlik tərəfindən müəyyən edilən məlumatları özündə saxlayan elektron informasiya sistemidir: «Həmin məlumatlar müayinələrin keçirildiyi tibb müəssisələrində, GEM-lərdə kompyuterlərə qoşulmuş xüsusiqurğular vasitəsilə oxuna və dəyişdirilə bilər. Müayinə kartı sistemi Mərkəzi İnformasiya Bazasından və müvafiq tibb müəssisələrində qurulmuş proqram təminatlarından, müəssisənin personal kompyuterinə qoşulmuş xüsusi oxuyucu qurğudan və elektron kartlardan ibarətdir».




Direktor müavininin sözlərinə görə, tibb müəssisəsinin rəhbəri tərəfindən müayinə kartı sistemi ilə işləmək hüququ verilən əməkdaş proqrama daxil olaraq, kart sahibinin kartında əməliyyatlar aparır. Aparılan bütün əməliyyatlar haqqında məlumat proqramda qeyd olunur. Gün ərzində aparılan əməliyyatlar elektron şəkildə İnformasiya Mərkəzinə göndərilir: «Qeyd edim ki, obliqat qrupların sağlamlıq vəziyyətinin qeydiyyatının aparılması məqsədi ilə İnformasiya Mərkəzində sistemin elektron registrinin bankı yaradılır. Eyni zamanda məlumatlar sistemin iştirakçıları olan tibb müəssisələrindəki lokal informasiya bazalarında və obliqat qruplara verilən elektron tibbi müayinə kartlarında saxlanılır. Sistem obliqat qruplara xidmət edən tibb müəssisələrini də əhatə edir. Sistemin iştirakçıları olan tibb müəssisələrində lokal informasiya bazalarına daxil olmaq və əməliyyat aparmaq üçün kompyuter avadanlığı və proqram təminatı quraşdırılır. Sistemin proqramı ilə tibb müəssisəsinin rəhbəri tərəfindən işləmə hüququ verilən əməkdaş proqrama daxil olaraq, lokal bazada və müayinə kartında əməliyyat apara bilər. Bunun üçün əməkdaşa elektron tibbi peşəkar kartı verilir. Sistemin iştirakçıları olan tibbi müayinə kabinetlərində obliqat qrupların ilkin qeydiyyatı aparılır və məlumatlar sistemə daxil edilir».

Müsahibim müayinədən keçəcək hər bir şəxsə kartların veriləcəyini dedi, bildirdi ki, tibbi müayinə kabinetləri kartları "Kartın verilməsi üçün anket"lər əsasında İctimai Səhiyyə və İslahatlar Mərkəzinə sifariş edəcək. Xüsusi avadanlıqlarla təchiz olunmuş bu Mərkəzdə həmin kartlar hazırlanaraq, onları sifariş etmiş poliklinikalar vasitəsilə sahiblərinə çatdırılacaq. O həmçinin vurğuladı ki, müayinə kartları vətəndaşlara ondan istifadə qaydası ilə tanış edilməklə veriləcək. Bu qaydalar Səhiyyə Nazirliyinin 5 sentyabr 2007-ci il tarixli 82 nömrəli əmri ilə təsdiq edilmiş «Tibbi müayinə kartı sistemindən istifadə Qaydaları»ndan çıxarış kimi kart alan vətəndaşa təqdim ediləcək. Müayinə kartının alınması üçün vətəndaşlar xidmət haqqı ödəyəcəklər.

C.Əsədzadə obliqat qrupların tibbi müayinələri zamanı ortaya çıxan yeni məlumatların da sistemə, o cümlədən müayinə kartına əlavə ediləcəyini söylədi.

O həmçinin peşəkar və müayinə kartlarından istifadə qaydası haqqında danışdı: "Peşəkar kartı Nazirliyin mülkiyyəti sayılır. Bu kartlar sistemin iştirakçıları olan müəssisələrə verilir. Müəssisə rəhbərliyi peşəkar kartın veriləcəyi əməkdaşı müəyyən edir və rəsmiləşdirmə aparır.

Müayinə kartına daxil etmək üçün verilən məlumatların düzgünlüyünə vətəndaşlar cavabdehlik daşıyırlar və kartlar onların özündə qalır. Vətəndaş müayinə kartının itməsi, oğurlanması və ya digər səbəblərdən istifadəyə yararlı olmaması barədə dərhal Nazirliyə və ya müayinə kartını aldığı müəssisəyə yazılı surətdə məlumat verməlidir. Müayinə kartının itməsi və ya istifadəyə yararsız hala düşməsi halında vətəndaş yeni kart almaq üçün tibbi müayinə kabinetlərinə müraciət edir. Məlumat sistemə daxil edildiyi zaman köhnə kart bloklanır və yeni kartın hazırlanması prosesi başlanılır. Yeni kartın verilməsi prosesi eynilə ilkin kartın verilməsi kimi həyata keçirilir.

Vətəndaş müayinə kartında olan məlumatın icazəsiz olaraq surətinin çıxarılmasına, ondan qeyri-qanuni məqsədlər üçün istifadəyə, məlumatlara müdaxiləyə, müayinə kartını başqasının istifadəsinə və ya icarəsinə verməsinə görə şəxsən məsuliyyət daşıyır.

Şəxs müayinə kartından ancaq nazirlik tərəfindən müəyyən edilən yerlərdə və avadanlıqlarda istifadə etməlidir. Əks halda yaranan problemlərə görə vətəndaş məsuliyyət daşıyır. Onu da qeyd edim ki, nazirlik müayinə kartlarından istifadə qaydasını və şərtlərini birtərəfli qaydada dəyişdirə bilər. Sistemin iştirakçısı olan müəssisələrin rəhbərləri və sistemlə işləyən digər şəxslər isə bu qaydalarla müəyyən edilmiş öhdəliklərin yerinə yetirilməsinə görə birbaşa cavabdehdirlər".

C.Əsədzadə müəssisələrin rəhbərlərinin və sistemlə işləyən şəxslərin öhdəlikləri haqqında da məlumat verdi. Qeyd etdi ki, müəssisə rəhbəri peşəkar kartın alınmasını, verilməsini və istifadəsini təmin etməli, sistemlə işləyən şəxslər üzərində nəzarəti həyata keçirməli, vətəndaşlara müayinə kartının düzgün və vaxtında paylanmasını, onlara aid məlumatın dəqiq və gecikdirilmədən sistemə və tibbi müayinə kartına daxil edilməsini təmin etməlidir. Sistemdə olan məlumatların yayılmasının qarşısını almaq üçün müvafiq tədbirlər həyata keçirilməlidir.

Sistemlə işləyən şəxslərin öhdəliklərinə gəldikdə isə, o bildirdi ki, şəxsiyyət vəsiqəsi və digər təsdiqləyici sənədlər əsasında vətəndaşların ilkin qeydiyyatı aparılmalı, vətəndaşlara dair məlumatlar sistemə və müayinə kartına düzgün daxil edilməli, yalnız təsdiqləyici sənədlər əsasında sistemdə və müayinə kartında olan məlumatlara dəyişiklik olunmalı, istifadədə olan avadanlıqların işlək vəziyyətdə saxlanılması təmin edilməlidir. Bunlarla yanaşı, sistemə digər şəxslərin icazəsiz daxil olmasına yol verilməməli, peşəkar kartı digər şəxslərə verilməməli, məlumatların məxfiliyi qorunmalı, peşəkar kartı yalnız nəzərdə tutulan tibb müəssisələrində istifadə olunmalıdır.

Müsahibimiz qanunvericilikdə sistemdən və kartlardan qeyri-qanuni istifadəyə görə məsuliyyət nəzərdə tutulduğunu bildirdi: «Sistemlə işləyən şəxslər istifadələrində olan avadanlıqlarda onların günahı ucbatından baş verən hər hansı problemlərə görə məsuliyyət daşıyırlar. Onlar işdən çıxdıqda və ya işdə olmadıqda peşəkar kartı müəssisənin rəhbərinə təhvil verməlidirlər».

Cəbrayıl müəllim, sonda qeyd etdi ki, vətəndaşın tibbi müayinədən keçməsi üçün müraciət etməsi faktı, onun sağlamlıq vəziyyəti, aşkarlanmış yoluxucu xəstəliklər, müayinə və müalicə vaxtı əldə edilən digər informasiyalar məlumat sirridir: «Vətəndaşın verəcəyi məlumatın gizli saxlanılması haqqında ona zəmanət verilir. Müəssisələr tərəfindən vətəndaşların sağlamlıq və müayinə nəticələrinə aid məlumatların məxfiliyi təmin edilməlidir. Kartda olan məlumatlar vətəndaşların razılığı ilə və ya qanunvericiliklə nəzərdə tutulmuş hallarda açıqlana bilər. Sistemlə işləyən əməkdaşlar tərəfindən sistemdə və ya müayinə kartında hər hansı məlumatın dəyişdirilməsi baş həkimin təsdiqlədiyi ərizə əsasında aparılır».